Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun iclasının

PROTOKOLU

Bakı şəhəri *30 aprel, 2024-cü il*

Sədrlik edirdi:

Rəşad Orucov – Mərkəzi Bankın sədrinin birinci müavini, Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun rəhbəri.

İştirakçılar:

1. Vüsal Şıxəliyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Komissiyanın Katibliyinin rəhbəri;
2. Fərahim Hüseynzadə – Nazirlər Kabinetinin Hüquq və qanunvericilik şöbəsinin aparıcı məsləhətçisi, Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun rəhbərinin müavini;
3. Kəmalə Qurbanova – Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru;
4. Leyla Nəbiyeva – Mərkəzi Bankın Prudensial siyasət və və metodologiya departamentinin direktoru
5. Anar Quliyev – Mərkəzi Bankın İnformasiya texnologiyaları departamentinin direktoru;
6. Orxan Abdullayev – Mərkəzi Bankın Kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin 1-ci nəzarət şöbəsinin rəisi;
7. Vüqar Məsimov – Mərkəzi Bankın İnformasiya texnologiyaları departamentinin Reyestr bölməsinin rəhbəri;
8. Mehdi Həsənov – İqtisadiyyat Nazirliyinin İqtisadi siyasət şöbəsinin Maliyyə-bank və rəqəmsallaşdırma sektorunun müdiri
9. Rövşən Cabbarov – Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyinin baş hüquqşünası
10. Zakir Nuriyev – Azərbaycan Banklar Assosiasiyasının sədri
11. Yunus Abdulov – Azərbaycan Banklar Assosiasiyasının icraçı direktoru;

12. Vüsal Həsənov – Azərbaycan Banklar Assosiasiyasının aparıcı iqtisadçısı;
13. Elçin Həbibov – Azərbaycan Kredit Bürosunun Baş direktoru;
14. Rasim Həbibzadə – Azərbaycan Kredit Bürosunun Biznesin İnkişafı Departamentinin baş mütəxəssisi;
15. Cəlal Əliyev – Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin sədri;
16. Süleyman Kələşov – Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin sədrinin müavini;
17. Jalə Hacıyeva – Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru;
18. Turanə Axundova – "Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyinin hüquqşünası;
19. Əli Hüseynli - Azərbaycan Fond Bazarı İştirakçıları Assosiasiyasının baş mütəxəssisi;
20. Toğrul Rəhimbəyli – Dövlət Neft Fondunun Risklərin idarə edilməsi departamentinin Modelləşdirmə və gəlirliliyin ölçülməsi şöbəsinin müdiri;
21. Aytac Rzazadə - Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin İqtisadi normativ aktlar idarəsinin məsləhətçisi;
22. İlqar Əsgərov – Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Katibliyinin rəhbər müavini;
23. Kənan Musayev – Mərkəzi Bankın Maliyyə sabitliyi departamentinin Maliyyə sektorunun inkişafı və innovasiyalar şöbəsinin böyük iqtisadçısı, Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun katibi;

Gündəlikdə olan məsələlər:

- İşçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı çərçivəsində 1-ci rüb ərzində görülmüş işlər və qarşıda duran vəzifələr;
- Azərbaycan Respublikası Prezidenti Administrasiyasından daxil olmuş 14.12.2023-cü il tarixli məktubda "Business Ready" hesabatının "Maliyyə xidmətləri" indikatoru üzrə qeyd olunan tapşırıqların icra vəziyyətinin müzakirəsi;
- "Business Ready" hesabatının "Maliyyə xidmətləri" indikatorunun sualları üzrə dövlət və özəl sektorun cavabları arasındakı fərqli məqamların müzakirəsi;
- Sahibkarlıq subyektlərinin güzəştli şərtlərlə kreditlərin əldə edilməsində üzləşdiyi çətinliklər.

İclasın gedişatı

Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun rəhbəri **Rəşad Orucov** iclası açıq elan edərək gündəlikdə duran məsələlər barədə məlumat verdi. Görüş zamanı Fəaliyyət Planı çərçivəsində 2024-cü ilin birinci rübü ərzində görülmüş işlər, "Business Ready" hesabatının Maliyyə xidmətləri indikatoru üzrə tapşırıqların icra statusu, habelə Maliyyə xidmətləri indikatoru üzrə dövlət və özəl sektor cavabları arasında fərqli məqamların müzakirəsinin nəzərdə tutulduğunu qeyd etdi. Bundan başqa, sahibkarlıq subyektləri tərəfindən KOBİA vasitəsilə güzəştli şərtlərlə kreditlərin alınması ilə bağlı qarşılaşılan çətinliklərlə bağlı işçi qrupuna ünvanlanmış müraciətə baxılacağını bildirdi.

Vüsal Şıxəliyev işçi qrupunun fəaliyyəti çərçivəsində 2023-cü il üzrə Yol Xəritəsinin uğurla icra olunduğunu və artıq yeni mərhələdə Business Ready hesabatından yaranan tələblərdən irəli gələrək yeni Yol Xəritəsinin layihəsinin hazırlanması işlərinin yekunlaşmaq üzrə olduğunu qeyd etdi. Həmçinin, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın 7 mart tarixli tədbirində Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun rəhbəri, eyni zamanda Azərbaycan Banklar Assosiasiyanın sədrinin çıxışının ümumilikdə özəl sektorun məlumatlandırılmasına xidmət etdiyini diqqətə çatdırdı. Habelə, "Bussiness Ready" hesabatının Maliyyə xidmətləri indikatoru üzrə dövlət və özəl sektor nümayəndələri arasında aparılmış qiymətləndirmə nəticələri əsasında kəsişmə

nöqtələrinin müəyyən edildiyini və xüsusən də məlumatlılığın aşağı olması səbəbindən özəl sektorun cavablarında bəzi məqamların öz əksini tapmadığını bildirdi. O, bu xüsusda Mərkəzi Bank tərəfindən Business Ready hesabatının Maliyyə xidmətləri ilə bağlı müvafiq metodologiyaya uyğun olaraq hüquqi və requlyativ çərçivəyə dair təhlil sənədinin hazırlandığını və bu sənədin daha geniş auditoriyaya çatdırılması üçün işçi qrupu üzvlərinin və Azərbaycan Banklar Assosiasiyasının dəstəyinin vacib olduğunu bildirdi. Bu sənədin maliyyə sektoru üzrə hüquqi və requlyativ çərçivəyə dair mötəbər istinad mənbəyi kimi çıxış etdiyini qeyd etdi. Yekunda **Vüsal Şıxəliyev** 2024-cü il üzrə Yol Xəritəsinin hazırlanaraq Komissiyaya təqdim edilməsinin vacibliyini vurğuladı.

Rəşad Orucov Business Ready hesabatına dair sahibkarlıq subyektlərinin məlumatlandırılmasının önəmli olduğunu, bu istiqamətdə assosiasiyalar da cəlb edilməklə birinci rüb ərzində bir sıra işlərin görüldüyünü diqqətə çatdırdı. Həmçinin, maarifləndirmə istiqamətində işlərin daha da aktivləşdirilməsinin vacibliyini qeyd etdi və maliyyə sektoruna dair təhlil sənədinin paylaşılmasının bu prosesə dəstək olacağını bildirdi.

Daha sonra gündəlikdə duran 1-ci məsələ ilə bağlı İşçi qrupunun katibi **Kənan Musayev** Fəaliyyət Planı çərçivəsində müəyyən edilmiş tədbirlər üzrə birinci rübdə görülmüş işlər barədə görüş iştirakçılarını məlumatlandırdı. O, KOS-ların maliyyələşməsi, sığorta və bank sektorunun inkişafı, kapital bazarlarının genişlənməsi, habelə maliyyə savadlılığının artırılması üzrə tədbirlərin icra statusu haqqında geniş məlumat verdi.

Vüsal Şıxəliyev işçi qrupunun Fəaliyyət Planının çoxşaxəli olduğunu və bir sıra kompleks tədbirlərin icra edildiyini bildirdi. Habelə, xüsusən də maliyyə sektoruna dair göstəricilərin Qlobal İnnovasiya İndeksi hesabatında öz əksini tapması ilə bağlı görülən işlərin əhəmiyyətini vurğuladı və bu istiqamətdə fəaliyyətlərin nəzarətdə saxlanılmasını tövsiyə etdi. O, Mərkəzi Bankın Virtual Təhsil Platformasında (VTP) biznes subyektləri üçün maraq kəsb edən kursların hazırlanması ilə bağlı təkliflərin müsbət qiymətləndirildiyini bildirdi və ümumilikdə platformada yerləşdirilmiş Business Ready hesabatının indikatorlarına uyğun gələn kursların vahid bölmədə cəmləşdirilməsini təklif etdi. O, belə bir bölmənin yaradılmasının məlumatlara əlçatanlığı artıracağını, eyni zamanda beynəlxalq təşkilatlar tərəfindən də bu cür mənbələrin olmasının müsbət qiymətləndirildiyini bildirdi. **Rəşad Orucov** VTP-nin imkanlarının əhəmiyyətli dərəcədə artırıldığını bildirdi və bu istiqamətdə təkmilləşdirmə işlərinin davam etdiyini qeyd etdi. Business Ready hesabatının indikatorlarının vahid bölmədə cəmləşdirilməsi ilə bağlı səsləndirilən təklifin məqbul

olduğunu və Business Ready hesabatında mövqelərimizin yaxşılaşmasına müsbət təsir edəcəyini vurğuladı.

İclasın davamında gündəlikdə duran 2-ci məsələyə keçildi və **Kənan Musayev** Business Ready hesabatının Maliyyə xidmətləri indikatoru ilə bağlı tapşırıqların icra vəziyyəti barədə görüş iştirakçılarına məlumat verdi.

Rəşad Orucov Business Ready hesabatı ilə bağlı maarifləndirmə işlərində assosiasiyaların və maliyyə institutlarının aktiv şəkildə prosesə dəstək verdiklərini qeyd etdi. Maarifləndirmə işləri ilə bağlı ümumi nəticələrin müsbət olduğunu qeyd edərək bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini vurğuladı.

Daha sonra gündəlikdə duran 3-cü məsələnin müzakirəsi başladı. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndəsi **İlqar Əsgərov** sahibkarlıq subyektlərinin güzəştli şərtlərlə kreditlərin əldə edilməsində üzləşdiyi çətinliklərlə bağlı daxil olmuş müraciət barədə iştirakçıları məlumatlandırdı. O, KOBİA-nin funksional fəaliyyətlərindən birinin də sahibkarlıq subyektlərinin fəaliyyətləri ilə bağlı ehtiyacların öyrənilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi olduğunu qeyd etdi. O, ötən dövr ərzində sahibkarlıq subyektləri tərəfindən daxil olmuş müraciətlərin əsasən regionlarda bizneslərin aşağı rentabelli olması səbəbindən bankların yüksək biznes kredit faizlərini tətbiq etməsi, kreditlər zəmanət mexanizminə sahibkarların əlçatanlıq səviyyəsinin aşağı olması, xüsusən də girov yetərsizliyinin regionlarda kreditə çıxış imkanlarını məhdudlaşdırdığını bildirdi. Eyni zamanda, girov kimi sahibkarlardan Bakı şəhərində daşınmaz əmlak tələb olunduğunu qeyd etdi. O, təminat məsələlərində İpoteka və Kredit Zəmanət Fondunun mövcud alətlərinin təkmilləşməsinə və təşviq edilməsinə ehtiyac olduğunu vurğuladı. O, həmçinin yeni bizneslərə kreditlərin verilməsində çətinliklərin olduğunu qeyd etdi və banklar tərəfindən 6-9 aylıq dövriyyənin olması tələbinin olduğunu bildirdi. Bu istiqamətdə sahibkarlıq müddəti tələbinin olmamasının məqsədəuyğun olduğunu qeyd etdi.

Məsələ ilə bağlı **Rəşad Orucov** dövlət fondları tərəfindən güzəştli kreditlər verilən zaman təminat və dövriyyə ilə bağlı məsələlərdə bankların bu fondlar tərəfindən müəyyən edilmiş şərtlərə əməl etməli olduğunu bildirdi və bu istiqamətdə müzakirələrə ehtiyac olduğunu vurğuladı.

Zakir Nuriyev bankların əsas vəzifələrindən birinin kredit verilməsi olduğunu və daima uyğun müştəri axtarışında olduqlarını bildirdi. O, KOBİA ilə görüşlərdə sahibkarlıq subyektləri tərəfindən daxil olmuş müraciətlərin ABA ilə bölüşülməsi və bu müraciətlərin əsaslı olub-olmamasının birgə araşdırılmasına dair təkliflərin verildiyini qeyd etdi. O,

güzəştli şərtlərlə kreditlərin verilməsi zamanı şərtlərin SİF tərəfindən müəyyən edildiyini, əgər qaydalarda dəyişikliklər edilərsə bankların buna əməl edəcəyini diqqətə çatdırdı. Həmçinin, hər hansı balansı olmayan bizneslərə kreditlərin verilməsi praktikasının olmadığını, belə kreditlər üçün 25% ehtiyat yaradılmasının tələb olunduğunu, eyni zamanda Dövlət Vergi Xidmətinin təsdiq etdiyi qaydalara görə bu növ kreditlər üzrə yaradılmış ehtiyatların xərcdən çıxılmasına icazə verilmədiyini bildirdi. O, həmçinin beynəlxalq yanaşmaya görə də kommersiya kreditləri ilə startapların maliyyələşdirilməsi praktikasının ümumiyyətlə olmadığını və əsasən investisiya banklarının, mələk investorların bu sahədə kreditor rolunda çıxış etdiyini diqqətə çatdırdı. Startapların banklar tərəfindən maliyyələşdirilməsinin sektorda riskləri artıracağını vurğuladı. Həmçinin, regionlarda kreditlərin verilməsi zamanı Bakı şəhərində hər hansı bir girov tələbinin olmadığını əlavə etdi. Kredit portfelinin böyük hissəsinin girovsuz kreditlər təşkil etdiyini və bu statistikanı bölüşməyə hazır olduqlarının bildirdi. O, sahibkarlıq subyektləri tərəfindən daxil olan şikayətlərin sektor üzvləri arasında bölüşülməsini və uyğun həll yollarının müəyyən olunmasını təklif etdi. Həmçinin, startaplara verilən kreditlər üzrə riskləri üzərinə götürən tərəf olarsa bankların bu kreditləri məmnuniyyətlə verməyə hazır olduqlarını bildirdi.

Rəşad Orucov bankların risk idarəetmə institutu olaraq risklərə ehtiyatla yanaşmalı olduqlarını və depozitorlar qarşısında öhdəlik daşıdıqlarını vurğuladı. İzafi risklərin bank sektorunda ciddi fəsadlara səbəb ola biləcəyini qeyd etdi. Həmçinin, aparılan təhlillər nəticəsində təminatsız və qismən təminatlı kreditlərin bankların kredit portfelinin yarıdan çoxunu təşkil etdiyini bildirdi. Eyni zamanda, mikro və kiçik bizneslərə verilən kreditlərin əhəmiyyətli hissəsinin təminatsız kreditlərdən ibarət olduğunu bildirdi. Dövlət zəmanət mexanizminin şərtlərində biznesə yeni başlayan sahibkarların ehtiyacları nəzərə alınaraq hər hansı dəyişikliklər edilərsə bu mexanizmdən aktiv istifadə ediləcəyini vurğuladı. **Rəşad Orucov** güzəştli kreditlər, habelə zəmanət mexanizminin parametrlərində hər hansı uyğunsuzluqlar varsa sahibkarların qaldırdıqları məsələnin aidiyyəti fondlar və bank nümayəndələrinin iştirakı ilə müzakirəsi məqsədilə birgə görüşün keçirilməsini təklif etdi.

İlqar Əsgərov sahibkarların güzəştli kreditlərə çıxışı ilə bağlı aidiyyətli fondlar və banklarla birgə görüşün keçirilməsinə hazır olduqlarını bildirdi. O, həmçinin KOBİA tərəfindən sahibkarlar üçün 10 min manatadək kreditlər üzrə zəmanət mexanizminin yaradıldığını qeyd etdi.

Daha sonra gündəlikdə duran 4-cü məsələnin müzakirəsinə başlandı. **Vüqar Məsimov** təminatlı əqdlər və təminatın qeydiyyatı bölməsi üzrə bir sualda müəyyən çatışmazlığın olduğunu və bununla bağlı 27 mart tarixində Qanun layihəsinin hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunduğunu qeyd etdi. Əlavə olaraq, maarifləndirmə tədbiri qismində Business Ready hesabatının metodoloji sənədinə uyğun olaraq əsasən fokus qrupların müəyyən edildiyini və bu istiqamətdə xarici və yerli hüquq şirkətləri, bankların hüquq departamentlərinin əməkdaşları və notariat ofislərinin rəhbər şəxsləri ilə kommunikasiyanın həyata keçirildiyini, həmçinin videoçarxların hazırlanaraq ictimaiyyətlə bölüşüldüyünü qeyd etdi. O, həmçinin daşınar əmlakın yüklülüyü reyestri barədə məlumatların Mərkəzi Bankın statistik bülletenində aylıq əsasda təqdim edildiyini diqqətə çatdırdı.

Vüsal Şıxəliyev sorğu anketinin 3-cü bölməsində qeyd olunan kreditin əldə olunmasına tələb olunan vaxt və xərc, elektron ödənişlərin həyata keçirilməsi üçün vaxt və xərc, gender məsələləri və s. suallar üzrə diaqnostikanın aparılmasını və nəticələrə uyğun hazırlıq səviyyəsinin müəyyənləşdirilməsinin məqsədəuyğun olduğunu təklif etdi. **Rəşad Orucov** kreditin əldə olunmasına tələb olunan vaxt və xərcə dair sorğunun artıq banklar arasında aparıldığını və ilkin nəticələrin əldə olunduğunu əlavə etdi. Digər istiqamətlər üzrə də sorğunun keçirilməsini məqsədəuyğun olduğunu qeyd etdi. Sonda **Rəşad Orucov** növbəti dövrdə Fəaliyyət Planı çərçivəsində işlərin davam etdirilməsinin və ümumi nəticələrin yaxşılaşdırılması məqsədilə səylərin artırılmasının vacib olduğunu bildirdi.

Qərara alındı:

1. Mərkəzi Bankın Virtual Təhsil Platformasında Dünya Bankının Business Ready hesabatının indikatorlarına uyğun olan kurslar vahid bölmədə cəmləşdirilsin (icra müddəti: 30.06.2024 tarixinədək; İcraçılar – Ceyhun Atayev);
2. Güzəştli şərtlərlə kreditlərin əldə edilməsində qarşılaşılan çətinliklərlə bağlı sahibkarlıq subyektləri tərəfindən edilmiş müraciətlə bağlı aidiyyəti fondlar (Sahibkarlığın İnkişafı Fondu, İpoteka və Kredit Zəmanət Fondu), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və bank nümayəndələrinin iştirakı ilə Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun tematik görüşü keçirilsin (icra müddəti: 30.06.2024 tarixinədək; icraçılar: Rüstəm Tahirov);
3. Business Ready hesabatının Maliyyə xidmətləri indikatorunun 3-cü komponenti (Praktikada maliyyə xidmətlərinin əldə edilməsinin effektivliyi) üzrə banklar arasında sorğu keçirilsin və nəticələri Komissiyaya təqdim edilsin (icra müddəti: 30.06.2024 tarixinədək; icraçılar: Rüstəm Tahirov, Yunus Abdulov);
4. Business Ready hesabatının Maliyyə xidmətləri indikatoru üzrə sahibkarlıq subyektlərinin məlumatlandırılması istiqamətində işlər davam etdirilsin (icra müddəti: 30.06.2024 tarixinədək; icraçılar: Vüqar Məsimov, Yunus Abdulov, Jalə Hacıyeva, Elmar Mirsalayev, Ceyhun Hacıyev, Xaqan Hümmətzadə).

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" İşçi qrupunun rəhbəri, Mərkəzi Bankın sədrinin birinci müavini

Rəşad Orucov

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" İşçi qrupunun katibi, Mərkəzi Bankın böyük iqtisadçısı

Kənan Musayev